Funded by the European Union and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Implemented by the Council of Europe

Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı 2019-2021-ci illər (YİT - II)

Regional Layihə: Vəkillik peşəsinin Avropa standartlarına uyğun olaraq gücləndirilməsi

Məqsəd nədir?

- Vətəndaşların hüquqi müdafiəsini daha yaxşı təmin etmək məqsədilə fəaliyyətləri və müstəqilliyi artırmaqdan ötrü Vəkillər Kollegiyaları arasında əməkdaşlığı gücləndirmək

Layihədən kim faydalanır?

- Ümumi ictimaiyyət öz hüquqlarının daha çox müdafiəsindən faydalanacaq.
- Özünüidarəetmə əsasında işləyən Vəkillər Kollegiyaları və vəkillər
- Ədliyyə nazirlikləri

Layihə necə işləyir?

- Həmkarların yaxşı təcrübələrdən öyrənməsini dəstəkləmək və regional şəbəkələnmə və ümumi həll yollarını artırmaq üçün regional fəaliyyətlərlə
- Milli Vəkillər Kollegiyasının yaranan ehtiyaclarını ödəmək üçün xüsusi işlənib hazırlanmış yanaşma ilə
- O, YİT I Mərhələ (2015-2018-ci illər) çərçivəsində ədalət mühakiməsi sahəsində əməkdaşlığın nəticələri üzərində qurulub.

Nələrə nail olmağı gözləyirik?

- Ədalət mühakiməsinin lazımi idarəetməsi üzrə həlləri mübadilə etmək məqsədilə həmkarlar arası əməkdaşlığı gücləndirməkdən ötrü vəkillərin və Vəkillər Kollegiyalarının regional əməkdaşlıq şəbəkəsi yaradılır.
- Vəkillər Kollegiyalarının daxili fəaliyyəti yaxşılaşdırılır.
- Vəkillərin müstəqilliyi və peşəkarlığı artırılır.
- Vəkillər tərəfindən hüquqi xidmətlərin təminatı gücləndirilir.

Layihənin büdcəsi nə qədərdir?

- Ümumi büdcə 555 000 avro təşkil edir.
- 80%-i Avropa İttifaqı, 20%-i isə Avropa Şurası tərəfindən maliyyələşdirilr. Proqram Avropa Şurası tərəfindən həyata keçirilir.

Layihənin müddəti nə qədərdir?

- Layihə 1 iyul 2019-cu ildən 31 dekabr 2021-ci ilə qədər davam edir.

Əlavə məlumatı necə əldə etmək olar?

- Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğu, Ədalət Mühakiməsi və Hüquqi Əməkdaşlıq İdarəsi

- Xanım Lilit Daneghian, Ədalət Mühakiməsi Sektorunun İslahatı şöbəsinin rəhbəri (Strasburq) lilit.daneghian-bossler@coe.int
- Cənab Andrii Kavakin, Layihə üzrə baş mütəxəssis (Strasburq) andrii.kavakin@coe.int

http://partnership-governance2-eu.coe.int

Bu, Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı çərçivəsində (II mərhələ, həmçinin YİT - II adlandırılır) həyata keçirilən, Şərq Tərəfdaşlığı ölkələrini əhatə edən (Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarus) regional layihədir.

2014-cü ilin aprel ayında Avropa İttifaqı və Avropa Şurası, Aİ-nin Şərq Tərəfdaşlığı ölkələri olan Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarus ilə məqsədyönlü əməkdaşlıq fəaliyyətlərinin Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı çərçivəsində həyata keçiriləcəyinə dair razılığa gəldilər. Proqramın I mərhələsi (YİT - I) 2015-ci ildə başlamış və 2018-ci ildə başa çatmışdır; proqramın ikinci mərhələsi (YİT - II) 2019-cu ildə başlamış və 2021-ci ilə qədər davam edəcəkdir.

Bu əməkdaşlıq fəaliyyətlərinin məqsədi, Belarus istisna olmaqla, Avropa Şurasının üzvü olan Şərq Tərəfdaşlığı ölkələrini insan hüquqları, demokratiya və qanunun aliliyi sahələrində Avropa standartlarına yaxınlaşdırmaq üçün onların daxili islahatları həyata keçirmək potensialını artırmaqdır.